Eldar Rza oğlu İBRAHİMOV
Azərbaycan Respublikası Milli Məclisinin
İntizam Komissiyasının sədri,
iqtisad elmləri doktoru, professor

Eldar Allahyar oğlu QULİYEV
Milli Məclisinin Hesablayıcı Komissiyasının sədri,
Azərbaycan Kooperasiya Universitetinin rektoru,
iqtisad elmləri doktoru, professor

Akademik Ziyad Əliabbas oğlu Səmədzadə – 85

VƏTƏNƏ XİDMƏTDƏ KEÇƏN ÖMÜR

Çağdaş Azərbaycan iqtisad elminin korifeylərindən biri kimi tarixə öz adını həkk edən Ziyad müəllim tükənməz enerjiyə malik, əhatəli və səmərəli işgüzarlığa və sistemli elmi təhlilin incəliklərinə mükəmməl bələd olan bir tədqiqatçı və yüksək təşkilatçılıq qabiliyyəti olan alimdir. Onu başqalarından fərqləndirən əsas cəhətlərdən biri apardığı elmi tədqiqatların daha konkret olması, əldə etdiyi nəticələrin yüksək səmərəliliyi və hazırladığı tövsiyələrin praktikada tətbiqi üçün icra mexanizminin mövcudluğudur. O, keçən əsrin 70-ci illərində ilk dəfə olaraq respublika sənayesinin demək olar ki, bütün sahələrini əhatə edən çox böyük həcmdə statistik informasiya və konkret müəssisələr üzrə məlumatlar əsasında istehsalın səmərəlilik göstəricilərini xalis məhsula görə hesablamış, iqtisadi artım, struktur problemlərinə dair sanballı elmi nəticələr əldə etmişdir. Qeyd etmək lazımdır ki, həmin dövrdə SSRİ-də iqtisadi artım xarici ölkələrdə olduğu kimi xalis məhsula (ümumi daxili məhsula) görə hesablanmırdı və bu ittifaqda yenilik idi. Məhz buna görə gərgin zəhmət bahasına görülmüş bu iş ittifaq alimləri və respublikamızın Dövlət Plan Komitəsi tərəfindən yüksək qiymətləndirilmişdi.

Ziyad müəllim həm də böyük vətənpərvər alimdir. Belə ki, 80-ci illərin ortalarında SSRİ Elmlər Akademiyası nəzdində xalqımızın yaddaşında qatı düsmən kimi qalan Aqanbekyanın sədrliyi ilə “Kaspiyskoye more” proqramının islənilməsi nəzərdə tutulmusdu. Tərtib edilmiş proqramda Xəzərin təbii sərvətlərindən istifadəsi ilə bağlı çox böyük islər müəyyənləsdirilsə də bu proqramda heç bir əsas olmadan Azərbaycana müqayisəedilməz dərəcədə çox az yer verilmisdi. SSRİ Elmlər Akademiyasının prezidenti, akademik Marçukun sədrliyi ilə Moskvada keçirilən Xəzər problemlərinə həsr edilən sessiyada Z.Səmədzadə bu məsələyə etirazını bildirmiş və çıxışında Xəzərin sərvətlərinin mənimsənilməsində Azərbaycanın müstəsna rola malik olduğunu faktlarla əsaslandırmısdır. Yaxşı oldu ki, həmin proqramın həyata keçməsi baş tutmadı.

Z.Səmədzadə öz həmkarları ilə birlikdə bütövlükdə SSRİ və ayrı-ayrı müttəfiq respublikalar üzrə külli miqdarda materiallar əsasında müqayisələr və mürəkkəb elmi hesablamalar apararaq sübut etdi ki, İttifaqda uzun müddət tətbiq olunan mərkəzləsdirilmiş plan-maliyyə sisteminə xas olan çox ciddi qüsurlar mövcuddur və respublikamızın ərazisində yaradılan Milli gəlirdən özünün istifadə hüquqları yolverilməz dərəcədə məhdudlasdırılr. Belə ki, bəzi müttəfiq respublikalar (o cümlədən Ermənistan) İttifaqa az məhsul verib çox alırsa, Azərbaycan çox verib az alır. Bununla da o, elmi cəhətdən əsaslandırılmış belə bir nəticəyə gəldi ki, Azərbaycan Respublikası digər ölkələrdən asılı olmadan müstəqil dövlət kimi fəaliyyət göstərmək iqtidarındadır. Bu tədqiqatın nəticələrinə əsasən 1989-cu ildə İttifaqda ilk dəfə olaraq akademikin elmi rəhbərliyi ilə regional təsərrüfat hesabı və Azərbaycanın iqtisadi müstəqilliyi problemlərinə həsr olunmuş respublika

miqyaslı böyük bir elmi-praktik konfrans keçirildi. Konfransda hazırlanan tövsiyələr Azərbaycanın iqtisadi müstəqilliyi haqqında qanun layihəsi üçün əsas oldu. Alim təkidlə sübut edirdi ki, yeni iqtisadi sistem qurmaq və iqtisadiyyatı dirçəltmək üçün iqtisadiyyatın dövlət tənzimləməsi lazımdır. Çünki risklərin və təhdidlərin artdığı bir şəraitdə hər şeyi bazar münasibətlərinin öhdəsinə buraxıb bazarı fetişləşdirmək olmaz. Yeri gəlmiskən qeyd etmək lazımdır ki, akademik bu məsələdə bu gün də çox prinsipial və aydın mövqe tutur və onun bu mövqeyi dünyanın bir sıra keyfiyyətlə inkişaf edən ölkələrinin, o cümlədən respublikamızın təcrübəsində öz təsdiqini tapır. Onun elmi tədqiqatları sübut edir ki, Ziyad Səmədzadə geniş elmi potensiala malik, uzaqgörən, dərin və sistemli elmi təhlillər aparan və əsaslandırılmış nəticələr əldə etməyi bacaran yüksək intellektli tədqiqatçı alimdir.

1991-1992-ci illərdə Azərbaycan SSR Ali Soveti sədrinin birinci müavini işlədiyi dövrdə Ziyad müəllimin çoxdankı arzusunun çin olması üçün şərait yaranmış və Ali Sovetin onun sədrliyi ilə keçən iclasında Azərbaycan Respublikasının müstəqillik aktı qəbul edilmisdir.

80-ci illərin sonu və 90-cı illərin əvvəlində müstəqilliyə keçid dövründə partiya, sovet və təsərrüfat (Dövlət Plan İqtisad Komitəsinin sədri, Baş nazirin birinci müavini) orqanlarında rəhbər vəzifələrdə qazandığı təcrübə Z.Səmədzadənin yüksək təşkilatçılıq bacarığının formalasmasına təsirsiz ötüsməmisdir. O, son 25 ildə iqtisadiyyatın bir çox istiqamətləri üzrə çoxsaylı disputlar, seminarlar, “dəyirmi masa” yığıncaqları, elmi konfranslar keçirilməsinə təşkilati rəhbərlik etmiş və bu tədbirlərdə fəal istirak etmisdir.

Ulu öndər Heydər Əliyevin əziz xatirəsinə həsr olunmuş “Böyük yolun mərhələləri: Azərbaycan iqtisadiyyatı yarım əsrdə, onun yeni reallıqları və perspektivləri” adlı 932 səhifəlik monoqrafiya (rus dilində, 2004-cü il) öz elmi tutumu, məntiqi və şərhi üslubuna görə fərqlənməklə Ziyad Səmədzadə yaradıcılığının şah əsəri hesab olunur. Bu kitab Avropa Elmlər Akademiyasının qızıl diplomuna layiq görülmüşdür. Bakıda doğulub boya-başa çatan, Azərbaycan neft sənayesinə yaxından bələd olan keçmiş SSRİ Dövlət Plan Komitəsinin sədri N.Baybakov bu kitabın qeyri-adi əsər olduğunu qeyd edir, onu Azərbaycanın iqtisadi keçmişinə və bu gününə analitik ekskursiya adlandırmaqla kitabda gələcəyə baxısların yer aldığını da vurğulayır. O, yazır : “Ziyad Səmədzadənin kitabı rəhmətlik Heydər Əliyevə həsr olunub və bu çox fərəhlidir. Birbaşa deyirəm-müəllif qarşıya qoyulan məqsədə çatıb. Bu geniş miqyaslı əsərdə Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin son on ildə Azərbaycanın iqtisadi və sosial inkişafında, onun milli mənafelərinin müdafiəsində, iqtisadi təhlükəsizliyinin möhkəmləndirilməsində rolu əsərdə çox dərindən və obyektiv olaraq göstərilib. Heydər Əliyevin möhtəşəm fəaliyyəti sayəsində Azərbaycan bu gün dinamik inkişaf edən dövlətdir”.

Həmyerlimiz Nikolay Baybakov Ziyad Səmədzadənin elm sahəsində işləmək, MK-nın İqtisadiyyat şöbəsinə və Ali Sovetin Plan-büdcə komissiyasına başçılıq etmək, Respublika Dövlət Plan Komitəsinə rəhbərlik etməklə böyük yol keçdiyini və bu təcrübənin ona həmin dövrün qlobal iqtisadi problemlərini düzgün seçməsinə imkan verdiyini qeyd edir. O, eyni zamanda Ziyad Səmədzadə ilə həmsöhbət olmağın xoş təəssürat yaratdığını və bir çox məsələlərdə eyni fikirdə olmalarını qeyd edir.

Həqiqətən də kitabda olan informasiyalar, fikirlər və nəticələrin əsaslandırılması baxımından onu Azərbaycanın keçdiyi yarım əsrlik iqtisadi inkişafın problemləri üzrə əsl ensiklopediya əsəri hesab etmək olar. Müəllif iqtisadiyyatın ən aktual problemləri üzrə mövcud reallıqları təhlil etmiş, Azərbaycanın iqtisadi təhlükəsizliyinin təmin edilməsi üçün strateji əhəmiyyət daşıyan yoxsulluğun ləğv edilməsi, regionların sürətli inkişafı, yeni iş yerlərinin açılması üzrə qəbul edilmis proqramların uğurla yerinə yetirilməsini ön plana keçirmisdir.

Akademik Z.Səmədzadənin elmi ictimaiyyət və genis oxucu kütləsi tərəfindən rəğbətlə qarşılanan “Dünya iqtisadiyyatı: Çinin “iqtisadi möcüzəsi” (2001) və “Çin qlobal dünya iqtisadiyyatında” (2009), “Kitay v qlobalğnoy mirovoy gkonomike” (2010) kitabları Azərbaycanın nəinki iqtisad elminə, həm də bütövlükdə milli elminə çox sanballı bir töhfədir. Bu monoqrafiyaya yüksək qiymət verən məşhur iqtisadçı –professorlar Vladimir Papaya və Teymuraz Beridze öz rəylərində

yazırlar "Azərbaycan Milli Elmlər Akademiyasının akademiki Ziyad Səmədzadənin oxuculara təqdim etdiyi kitab, sözsüz ki, son onilliklərin fenomeninin tədqiqatına – Çin Xalq Respublikasının iqtisadiyyatına həsr edilmiş ədəbiyyat külliyatında görkəmli yer tutacaqdır. O, həm keçid dövrünü yaşayan ölkələrin iqtisadiyyatı ilə maraqlanan alim – iqtisadçı, həm də perspektiv inkişafla məşqul olan alimlər üçün çox faydalı olacaq".

O, eyni zamanda qloballaşan dünyada Almaniyanın sosial-iqtisadi dirçəliş konsepsiyası, yapon "iqtisadi möcüzəsi", Cənubi Koreyanın iqtisadi sıçrayışının əsasları, iqtisadi inkişafın Malayziya modeli, iqtisadiyyata sistemli yanasmanın "Leontyev modeli" kimi tədqiqat materiallarına da yer vermisdir. Müəllif Çində iqtisadi təhlükəsizlik və onun tərkib hissəsi olan ərzaq və ekoloji təhlükəsizlik, regionların tarazlı inkişafı, məhsuldar qüvvələrin yerləsdirilməsi, urbanizasiya, demoqrafiya və issizlik məsələləri və digər aktual məsələlərə xüsusi diqqət verildiyini qeyd edir. O, aparılan arasdırmalar və elmi tədqiqatlar nəticəsində Çin iqtisadiyyatını fərqləndirən əsas iqtisadi yanaşma, iqtisadi mexanizmlərdən respublikamızda istifadə imkanlarını müəyyən etmisdir. Təklif olunur ki, ölkəmizin iqtisadi təhlükəsizliyinin təmin edilməsi üçün azad ticarət zonalarının yaradılması, texnoparkların və aqroparkların genisləndirilməsi, ÜTT-yə üzv prosesində tələskənliyə yol verməməklə ölkəmiz üçün daha əlverisli şərtlərin əldə edilməsi, dövlətin iqtisadiyyata optimal səviyyədə müdaxiləsinin vacibliyi və digər aktual məsələlərə dair Çin iqtisadiyyatının uğurlarından faydalanmaq vacibdir.

Beynəlxalq iqtisadçılar Birliyinin prezidenti, professor Q.Popov və akademik L.Abalkin Z.Səmədzadəni yeni iqtisadi fikrin, yeni ideya və yanasmaların fəal və yorulmaz təbliğatçısı adlandırmıslar. Bu həqiqətən də belədir.

Məhz onun təşəbbüsü və elmi təskilatçılığı ilə 1997 və 1998-ci illərdə Bakıda "Azərbaycan XXI əsrin astanasında" devizi altında iki beynəlxalq konfransın keçirilməsini onun geniş əhatəli elmi təskilatçılıq fəaliyyətinin zirvəsi hesab etmək olar. Belə ki, bu konfransların materialları əsasında nəşr edilən 2500 səhifəlik 3 cildliyə daxil edilmiş 500 müəllifin elmi düşüncələri mahiyyət etibarilə XXI əsrin mürəkkəb iqtisadi problemlərinin həllində Azərbaycan elminin istirakına yönəlmiş ilk cəhddir. Bu cəhdə rəhbərliyi isə akademik Z.Səmədzadə etmisdir.

Z.Səmədzadə həmin konfranslarda öz aktuallığını və əhəmiyyətini bu gün də saxlayan "Azərbaycan iqtisadiyyatı XX əsrdə: inkişaf mərhələləri, XXI əsrin birinci onilliyində iqtisadi inkişaf konsepsiyası haqqında düşüncələr" və "Ümumbəşəri problemlər və Azərbaycan" mövzularında məruzələrlə çıxış etmisdir. Onun bu məruzələrini öz mahiyyəti və məzmunu etibarilə Azərbaycan Respublikasının XXI əsrin ilk onilliklərində sosial-iqtisadi inkişafının "yol xəritəsi" hesab etmək olar. Z.Səmədzadə birinci konfransda XXI əsrin birinci onilliyində Azərbaycanın iqtisadi inkişaf konsepsiyası haqqında düşüncələrində qeyd etmisdir ki, bizim məqsədimiz insan cəmiyyətinin inkişafında mühüm rol oynayan, Şərqin və Avropanın ən əlverisli mövqelərindən birində yerləşən Azərbaycanın sosial-iqtisadi həyatında baş verən dəyişikliklərin ümumi meyllərini askar etmək, XXI əsrin başlanğıcında və XXI əsrin birinci onilliyində inkişaf strategiyası ilə bağlı bəzi fikirləri açıqlamaqdan ibarətdir. Müəllif Azərbaycan iqtisadiyyatının XX əsrdə inkişaf mərhələlərini təhlil edərək belə bir qəti fikir bildirir ki, 70-ci illər iqtisadi inkişaf sürəti, sənayedə struktur dəyişiklikləri, iqtisadiyyata əsaslı vəsait qoyuluşunun həcmi istiqamətləri baxımından XX əsrin ən məhsuldar illəri olmusdur. Həmin dövrdə respublikamızda Heydər Əliyevin səmərəli fəaliyyəti sayəsində böyük elmi-texniki və istehsal potensialı yaradılmısdır. İndi bazar münasibətləri bu möhkəm təməl üzərində qurulur və Azərbaycan elə bir inkişaf strategiyası seçməlidir ki, onun reallasması XXI əsrin birinci iki onilliyində respublikada keyfiyyətli həyat səviyyəsini xarakterizə edən göstəricilərə nail olmağa imkan versin. Biz indi fəxrlə deyə bilərik ki, əsası ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulan və hörmətli Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilən iqtisadi strategiya bu çağırışa tam cavab verir və respublikamızın dinamik inkişafını təmin edir.

2002-ci ildə nəfis tərtibatla 400 səh. həcmində çap olunmuş və Azərbaycan Dövlət İqtisad Universitetinin 70 illik yubileyinə hədiyə edilmiş "İqtisadi tərəqqiyə həsr edilən ömürlər" kitabında Ziyad müəllim böyük zəhmət hesabına Azərbaycan iqtisadçı alimləri – Milli Elmlər

Akademiyasının həqiqi və müxbir üzvləri, professorlar, iqtisad elmləri doktorunun (123 nəfər) həyat və elmi yaradıcılığı barədə geniş biblioqrafik materiallar vermişdir. Kitaba verdiyi “Azərbaycan iqtisad elminin dünəni, bu günü, sabahı barədə düşüncələr” adlı giriş məqaləsində hörmətli müəllif uzaqgörənliklə yazmışdır: “Respublikamızın inkişaf imkanları, perspektivləri isə çox böyükdür. Mən bir iqtisadçı kimi tam əminəm ki, XXI əsrdə Azərbaycan dinamik və keyfiyyətli iqtisadi inkişafı təmin edə bilən müstəqil bir dövlət kimi fəaliyyət göstərəkdir. İqtisad elmi də bu müqəddəs vəzifəyə xidmət etməlidir”.

Akademikin “Azərbaycan iqtisadiyyatı Böyük Vətən müharibəsi illərində” mövzusu ilə əlaqədar apardığı sanballı tədqiqatlar da diqqətəlayiqdir. Tarixi faktlarla zəngin olan bu kitablarda müəllif qürurla qeyd edir: “Bakı nefti olmasaydı, faşızm üzərində qələbə olmazdı”.

Z.Səmədzadə hesab edir ki, XXI əsrin ən böyük xüsusiyyətlərindən biri ondan ibarət olacaqdır ki, insan amili və intellektual potensial sosial-iqtisadi tərəqqinin və yüksək həyat səviyyəsinin təmin edilməsinin baslıca amilinə çevriləcəkdir. O, təklif edir ki, Azərbaycan öz milli dövlət mənafelərini qorumaqla yanaşı dünya iqtisadiyyatında baş verən proseslərdən kənar dura bilməz. Respublikamızın dünya ticarət təskilatına üzv olmasının süni yollarla tələsdirilməsi məqsədəuyğun deyildir. Bu proses ilk növbədə daxildə istehsalın nəticə göstəricilərinin yaxşılasması, rəqabətə davamlı məhsul istehsalının artması, vətən əmtəə istehsalçılarının qorunması prosesi ilə müşayiət edilməlidir.

TACİC və TRACECA proqramı üzrə Azərbaycanın Milli Koordinatoru olmuş akademik Ziyad Səmədzadəni daim düşündürən və narahat edən problemlərdən biri də ölkəmizin nəqliyyat strategiyasının təkmilləşdirilməsi olmuşdur. “Qloballaşan dünyada hər hansı ölkənin nəqliyyat sisteminin uğurlu inkişafı region ölkələrinə inteqrasiya olunmasında əsas şərtlərdən biridir” ifadəsini tez-tez vurğulayan alim XXI əsrdə Azərbaycan nəqliyyatının daha qlobal xarakter alacağına əminlik ifadə edirdi. Həqiqətən də, XXI əsrin başlanğıcında onun qeyd etdiyi kimi, Avropa-Qafqaz-Asiya nəqliyyat sisteminin, “Transqafqaz”, “Transxəzər”, qədim “İpək yolu”nun, Bakı-Tbilisi-Ceyhan, Bskı-Novorossiysk-Supsa, Bakı-Ərzurum, Bakı-Tbilisi-Qars iri miqyaslı nəqliyyat layihələrinin reallaşması Azərbaycanın nəqliyyat sisteminin beynəlxalq miqyaslı rolunu və əhəmiyyətini artırdı. Azərbaycanın enerji resurslarının Avropanın region ölkələrinə ixrac olunmasında qlobal layihələrdən olan TANAP və TAP layihəsinin reallaşması alimin dediklərinin sübutudur.

Akademik Z.Səmədzadə artıq 60 ilə yaxındır ki, Azərbaycanı bir çox beynəlxalq simpozium və konqreslərdə layiqincə təmsil edir. O, dünyanın əsas elm mərkəzlərində keçirilən iri forum, konfrans, elmi seminarlarında çıxıs edərək geniş elmi diapazona malik olduğunu nümayiş etdirir, Azərbaycanın müasir iqtisadiyyat elmi üzrə özünün ideya və baxıslarını bəyan edir.

Cəsarətli qələm sahibi olan Ziyad müəllimin respublikamızda gənc elmi nəslin formalaşmasındakı xidmətləri də xüsusi qeyd edilməlidir. 25 yaşında namizədlik, 31 yaşında doktorluq dissertasiyaları müdafiə etmiş akademik özünün elmi məktəbini yaratmış, onun bilavasitə rəhbərliyi altında 60-dan çox doktorant və dissertant müvafiq elmi dərəcələrə yiyələnməklə hazırda müxtəlif elm ocaqlarında uğurla fəaliyyət göstərirlər. Uzun müddətdir ki, Z.Səmədzadə ixtisaslaşdırılmış müdafiə şuralarına bacarıqla sədrlik edir. 1995-2001-ci illərdə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin üzvü olmuşdur.

Akademikin 1999-cu ildə təsis etdiyi və müntəzən nəşr olunan “İqtisadiyyat” qəzeti respublika iqtisadçılarının maraqlı informasiya mənbəyinə, canlı diskussiyalar, elmi axtarışlar və güclü ideya-siyasi təbliğat məkanına çevrilmişdir.

Ziyad müəllim elmi fəaliyyəti və bir sıra ictimai islərlə yanaşı 2005-ci ildən 2020-ci ilə kimi üçüncü, dördüncü və beşinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı və İqtisadi siyasət komitəsinin sədri olmuş və hazırda iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin VI çağırış deputatı kimi fəaliyyətini davam etdirir. O, deputat və komitə sədri kimi bu illər ərzində Milli Məclisdə iqtisadi və digər məsələlərə dair qəbul edilən qanunların hazırlanmasında və müzakirələrində həmişə fəal istirak edir, qanunların təkmilləsdirilməsi üçün çox dəyərli təkliflər verir. Geniş və dərin elmi potensialından istifadə edərək hər il qəbul edilən Azərbaycan Respublikasının büdcəsi haqqında qanunun əhatəli, şəffaf, xərclərin ilk növbədə ölkənin sosial-iqtisadi inkişafını təmin

edən fundamental və aktual problemlərə yönəldilməsi, pul, maliyyə-kredit sisteminin qanunvericilik bazasının daim təkmilləsməsi üçün var qüvvəsi ilə çalışır.

Fenomen biliklərə malik akademik Ziyad Səmədzadə bu gün də ona məxsus olan gənclik enerjisi və həvəsi ilə yüksək isgüzarlıq və əzmkarlıq göstərir. Ziyad müəllimin təşəbbüsü və bilavasitə elmi rəhbərliyi ilə yeddi cildlik “Böyük İqtisadi Ensiklopediya”nın 2012 və 2015-ci illərdə nəşr edilməsi dediklərimizin əyani sübutudur. Onu da bildiririk ki, belə əhatəli, cədvəl, şəkil və sxemlərlə müşayiət olunan ən müasir terminlərin geniş şərhini verən ikinci bir ensiklopediya hələ işıq üzü görməyib. Böyük zəhmət hesabına akademikin 2021-2022-ci illərdə ərsəyə gətirdiyi 5 cildlik “Azərbaycan iqtisadiyyatı 100 ildə” (o cümlədən “Qarabağ iqtisadiyyatı 100 ildə”) əsərləri isə gənc alimlərin və tədqiqatçıların masaüstü kitabına çevrilmişdir. Bu da onu göstərir ki, Azərbaycanın dünya səviyyəsində iqtisad elmi və güclü elmi potensiala malik alimləri var.

Azərbaycan İqtisadçılar İttifaqının sədri, Beynəlxalq İqtisadçılar İttifaqının vitse-prezidenti Ziyad Səmədzadənin çoxşaxəli ömür çalarlarını, əlbəttə ki, bir yazıda əhatə etmək mümkün deyil. Lakin böyük məmnunluq hissi ilə qeyd edə bilərik ki, onun ictimai və elmi fəaliyyətinin əsas məqsədi doğma Azərbaycanımızın iqtisadi, siyasi və beynəlxalq qüdrətinin günbəgün artması olmuşdur.

Hörmətli akademikimizin təxminən 60 illik elmi-pedaqoji və ictimai-siyasi fəaliyyəti həm ölkəmizin, həm də xarici dövlətlərin rəhbər orqanları və elmi qurumları tərəfindən həmişə yüksək qiymətə layiq görülmüşdür. Müxtəlif illərdə ayrı-ayrı nailiyyətlərə görə ona verilmiş təşəkkür məktublarının, diplomların, sertifikatların, döş nişanlarının, Fəxri Fərmanların, orden və medalların bolluğu bizi həmişə ürəkdən sevindirmişdir. Bunların içərisində Azərbaycanımızın ən yüksək dövlət təltifləri olan Qırmızı Əmək Bayrağı (1986), “Şöhrət” (2010), “Şərəf” (2015), 1-ci dərəcəli “Vətənə xidmətə görə” (2020) ordenləri yubilarımızın sinəsini bəzəməkdədir.

Biz ömrünün müdrik çağlarını yaşayan hörmətli həmkarımız və dostumuz, görkəmli elm və dövlət xadimi, əsl ziyalı, xalqının və ölkəsinin başını həmişə uca edən Ziyad müəllimi anadan olmasının 85 illiyi münasibəti ilə səmimi qəlbdən təbrik edir, ona möhkəm can sağlığı, elmi yaradıcılığında, ictimai-siyasi və pedaqoji fəaliyyətində yeni-yeni uğurlar arzu edirik.